

# Əsil insan

## ilk növbədə mərifəti ilə seçilmәlidir

*Diqqətinizə yetirəcəyim müsahibə üzərində işləyərkən qeyri-ixtiyari 2001-ci ilin 25 may gününü xatırladım. Nazirlik Ağcabədiyə yeni müdir təyin etməli idi. Bu məqsədlə artıq həmin rayondan nümayəndə də gəlmişdi. Hamı onu görmək, tanış olmaq, söhbət etmək istəyirdi.*

Təbii ki, bütün bunlar səbəbsiz deyildi. İllərdən bəri bu bölgədə mədəniyyətimizlə bağlı həlli vacib saysız-hesabsız problemlər toplanmışdı. Odur ki, hər kəs xidmət etdiyi sahə ilə əlaqədar təqdimata gəlmiş namizədlə görüşə can atırdı. Növbə mənə də çatdı. Onu nazir müavininin qapısı ağzında «yaxaladım»:

- Ağcabədidən təsdiqə gələn Sizsiniz ?

- Bəli, - deyə maraqla üzümə baxdı.

- Bilirsiniz, mən «Mədəni-maarif» jurnalının baş redaktoruyam. Sizin rayon abunəyə çox pis qoşulub...

- Düzü, mən hələ heç bir şey bilmir və vəd etmirəm. Qoyun bir təsdiq olunum, ondan sonra gedib baxaram. Sonra...

Sözünün davamını gətirə bilmədi. Onu içəri dəvət etdilər. Beləcə biz ayrıldıq. Nə danım, bu görüş heç məni açmadı: «Bu nə qaradinməz adamdır. Çətin ki, problemləri həll etsin...»

Sən demə, bərk yanılırammış. Sonralar Rza müəllimi daha yaxından tanıyacaq və biləcəyəm ki, o boş-boş vəd verənlərdən deyil, deyəcəyi sözü yüz ölçüb-bir biçir...

Hadisələri qabaqlayaraq qeyd edim ki, 2000-ci ildə Ağcabədi Rayon Mədəniyyət Şöbəsi jurnalımıza cəmi 3 nüsxə abunə olunmuşdu. Rza müəllimin təyinatından sonra bu göstərici sürətlə dəyişməyə başladı: 2001- ci ildə 31 nüsxə, 2002-ci ildə 51 nüsxə, 2003-cü ildə 55 nüsxə, 2004-cü ildə 55 nüsxə, 2005-ci ildə 40 nüsxə, 2006-cı ildə 40 nüsxə və başa vur duğumuz 2007-ci ildə 55 nüsxə. Dönüş yalnız abunədə olmadı. Təmir-bərpa, kitabxanaların latın qrafikalı ədəbiyyatla zənginləşdirilməsi, ixtisasartırma kursuna dinləyici göndərilməsi, istedadların aşkara çıxarılması işində də qısa vaxt ərzində bir irəliləyiş hiss edildi.

Maraqlıdır deyilmi? Ağcabədidə heç nə dəyişməmişdi. Yenə də şöbənin tabeliyində 122 mədəni-maarif müəssisəsi – musiqi məktəbi, klub, kitabxana, muzey vardı. Burada çalışanlar da elə eyni adamlardı. Bəs onda?!

Yox, Rza müəllimin təyinatı ilə şöbədə çox şey dəyişdi. Müəssisələrdə ab-hava da, işə münasibət də, tutulan vəzifəyə məsuliyyət də, əməkdaşlara qayğı və diqqət də... Bu da nəticəsi.

Demək, uğurun səbəbini başqa yerdə axtarmaq lazımdır. Yəni, rayonun böyüklüyü, müəssisələrin çoxluğu hələ qələbə deyil. Nailiyyət üçün sənətini sevməlisən, işinə məsuliyyətlə yanaşmalısan, ona ürəkdən bağlı olmalısan, kollektivdə müvəffəqiyyətə inam hissi aşılayıb onu eyni istiqamətə yönəltməlisən.

Amma Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Rza Quliyevlə söhbətimiz tamam başqa mövzuda olacaq. Düşünürük ki, qazanılmış uğurun digər səbəblərini də bu müsahibədə özünüz tapacaqsınız.

***- Rza müəllim, hərəkətlərinizdə, davranışlarınızda ədəb-ərkanı gözləmək, adət-ənənələrimizə bu qədər bağlılıq Sizin pedaqoq olmağınızdan irəli gəlmir ki?!***

- Yaşar müəllim, sualınızda bir məntiq var. Nə deyim, bəlkə də bunun xüsusi rolu olub. İndi Sizinlə söhbət edərkən qeyri-ixtiyari uşaqlıq çağlarıma qayıdıram. O vaxt mənim 6 yaşım ancaq olardı. Bir gün babam hansısa hərəkətimi görüb

məni yanına çağırdı, başıma sığal çəkərək üzünü ətrafdakılara tutdu: "Bu uşaqdan böyük bir ağsaqqal olacaq.»

Yalan olmasın, o söz bəlkə də məni ömrüm boyu izləyib, məni ciddi olmağa, necə deyərlər, ağır oturub-batman gəlməyə səsləyib. Sonra, həyatda görüb-götürdüklərim mənim üçün bir dərs olub. Çalışmışam ki, səhv etməyim. Odur ki, həmişə müdrik insanlarla ünsiyyətə can atmış, onlardan yaxşı nə varsa əxz etməyə səy göstərmişəm.

Bunlar hamısı tarixdən, ulularımızdan gəlir. Dünya gör-götür dünyasıdır. Ulularımızın bizə tövsiyə etdiyi, qoyub-getdiyi irsi müasir gəncliklə müqayisə edib ondan bir nəticə çıxarmağı vacib bilmişəm. Ona görə də həmişə çalışmışam ki, xalqımızın əsrlərin sınağına sinə gərən adət-ənənələrinə hörmətlə yanaşam, fikir söyləyəm, gənclərimizin tərbiyəsində müsbət rol oynayam.

İndi "mentalitet" sözü çox dəbdədir. Adət-ənənəmizə xilaf çıxanları düz yola çağırmaq üçün onlara iradımızı bu sözlə çatdırırıq. Buna böyüklərimiz belə demirdi. Onu «ağsaqqallıq», «qanacaq», «mərifət» adlandırır, adamları yüz ölçüb-bir biçməyə çağırırdılar.

Amma son dövrlər onu bir az müasirləşdirib "milli mentalitet" sözü ilə əvəz etmişik.

Həyat bir məktəbdir. Mən dərs deyərkən şagirdlərimə söylərdim ki, biz sizə öyrədə bilmədiklərimizi həyat özü öyrədəcək. Uşaq vaxtı nə qədər yıxılıb-durursansa bu sənə bir dərs olur. Çalışırsan ki, böyüyəndə büdrəməyəsən.

Mən harada, hansı vəzifədə çalışmışamsa bir tövsiyəm olub: «Yüz ölç, bir biç. Gələcəyin qənaəti soyuq başla fikirləş. Əsəbi halda qərar qəbul etmə. Əks təqdirdə bütün bunlar istər-istəməz ümumi işinə, nüfuzuna mane olar, xələl gətirər...»

***- Bəzən ilk baxışdan son dərəcə sərt səslənən, amma haradasa obyektivliyə söykənən bir fikir söylənilir: «Sanki insanlar cılızlaşmaya doğru gedir. Babamız atamızdan, atamız bizdən, biz isə övladımızdan daha qüvvətli, daha qeyrətli, daha cəsarətli, daha vətənpərvərik ..."***

- Mən bunu öz ata-babalarımdan eşidib-gördüyüm, başa düşdüyüm formada izah etmək istərdim. XX əsrin 18-20-ci illərində Qarabağda vurtut 5-6 oxumuş vardı. Bu bölgədə savadsızlıq baş alıb gedirdi. Adamlar radio və televiziyadan uzaq idilər. Təbii ki, indiki telefon əlaqəsi də yox idi. Nəticədə insanlar bir-birilə sıx ünsiyyət saxlayırdılar. Bu və digər məsələni üz-üzə əyləşərək həll edirdilər. Səmimi bir münasibət vardı.

Bu mənada, insanlar, mən elə hesab edirəm ki, cılızlaşmır. Onların sayı çoxalır. Əhalinin sayı ilə bərabər qayğı və problemləri də artır. Xarici ölkələrə inteqrasiya güclənir. Başqa dövlətlərdə çalışıb yaşayanlar qayıdanda özləri ilə bərabər həmin ölkəyə xas ab-hava gətirirlər. Onu 5-10 yoldaşı ilə bölüşürlər. Onlar da öz növbəsində başqaları ilə həyata keçirirlər. Beləcə zəncirvari yayılır. Bununla belə mən adət-ənənəmizdə cılızlaşma görmürəm. Ağsaqqallar həmişə gənclərə örnək olub, yol göstərib.

Amma onu da etiraf etməliyik ki, indi tərbiyəçinin işi ağırlaşıb. Bar, diskoteka və s. tərbiyəyə pis təsir edir. Valideynlərə, cəmiyyətə əlavə problemlər yaradır.

Unutmaq olmaz ki, mədəniyyət mədəniyyət şöbələrində formalaşmır. Mədəniyyətin müxtəlif formaları var. Yemək mədəniyyəti, oturmaq mədəniyyəti, danışıq mədəniyyəti, geyim mədəniyyəti. Bu mədəniyyətləri cəmləşdirəndə insan formalaşır. Amma bəzən görürsən ki, birisinə irad tuturlar: «Mədəniyyət işçisisən ayıb deyilmi?!»

Əslində bu söz onu deyənə də aiddir. Məgər yalnız mədəniyyət işçisimi mədəniyyətli olmalıdır?!

Təbii ki, cavanlarımızın davranışlarında qüsur çoxdur. Amma mən inanıram ki, bu da tədricən aradan qalxacaq...

***- Düz həmişəmi düzdə qalır?***

- Yox ! Bu, gözəl atalar sözlərimizdən biridir: "Düz düzdə qalar." Amma bu məsələyə hərfi mənada baxmaq olmaz. Məsələn, mən düz adamam, fəqət evim yoxdur, varım-dövlətim yoxdur. Düz olmayanların isə varı-dövləti başlarından aşır. Deyir, utanmasan oynamağa, nə var ki. Ona görə də utanmayan adamların dövləti çoxdur. Mən utanan adamam. Ağlayanla ağlayan, gülənlə gülənəm. Başqalarının sevincini sevincim, qəmini qəmim kimi qəbul edirəm. Odur ki, bu cür məsələlərə öz prizmamdan baxıram. Kimin var-dövləti varsa «Allah bir az da çox eləsin» deyirəm. Başqasına iki, özümə bir inək diləyirəm.

Bir də unutmamalıyıq ki, düz həmişə əyrini kəsir. Belə bir məsəl də var: «Yalan ayaq tutar, amma yeriməz». Yəni, əyri çox uzaq gedə bilməz. Ona görə də ən böyük sapıtmalar düzün qarşısında acizdən-aciz, zəifdən-zəif, gücsüzdən-gücsüzdür.

Düzü Allah da sevir, bəndə də. Hətta əyrilərin özləri də ona həsəd aparır. Güzgüdə daranmaqla iş bitmir. Necə deyərlər, gərək cəmiyyət güzgüsündə «daranasan». Onda bütün səhvlərimizdən qurtula, nöqsanlarımızdan azad ola bilərik.

***- Bir tərəfdən şikayətlənirik ki, ermənilər musiqimizi oğurlayır, digər tərəfdən də onu lazımınca qoruya bilmirik...***

- Çox bəlalı bir məsələdir bu. Allah bizim varımızı həmişə çox etsin ki, ondan hamı bəhrələnsin.

Bəli, onlar bizim torpağımız kimi musiqimizə, rəqsimizə, mədəniyyətimizə də qənim kəsiliblər. Çünki ermənilərin kökündə mədəniyyət deyil, barbarlıq var, vəhşilik var.

Mən özüm dəfələrlə tədbir və toy şənliklərində "Sarı gəlin"i sifariş vermişəm. Maraqlanmışam ki, adamların münasibətini öyrənim. Onu dinləyənlərin ağlayanını da görmüşəm, ağız büzənini də: «Ə, bir mahnı tapmırsınız oxutmağa?». Dərk etmirlər ki, mənim "Sarı gəlin"imi erməni özünün milli musiqisi kimi dünyaya sırıyır, biz isə oxudanda utanmadan səsini başına götürürlər: "O nədir, ə?! Bir "Yaxan düymələ" çaldır, düymələyir-düymələsin, düymələmir cəhənnəmə düymələməsin..." Qəribə orasıdır ki, ətrafdakılar da məzəmmət etmək əvəzinə onlara qoşulub gülürlər.

Sizə deyim ki, bu işdə bizim televiziya və mətbuatımız da çox zəiflik edir. Dəhşətdir, istedadı SMS-lə üzə çıxarmaq istəyirlər. Bu, millətin pulunu sovurmaqdan başqa bir şey deyil. Yaxşı ki, AzTV bu yaxınlarda bir nümunə göstərdi. Ətrafına görkəmli incəsənət xadimlərini yığdı. Təbii ki, istedadı mütəxəssis seçməlidir. Əks təqdirdə axı biz istedadın ümidini sarsıdır, qol-qanadını sındırırıq...

Bütövlükdə onu deyim ki, bizdə ümumxalq qınağı zəifdir. Hər kəs öz sözünü çatdırmalıdır. "Tərəkəmə"miz, "Kolxoz rəqs"imiz, «Heyva gülü»müz duran yerdə "Yanıq Kərəmi"yə qol qaldırıb sındırırıqsa, SMS-lə millətin mənəvi dünyasını təhqir ediriksə erməniləri niyə qınamalıyıq?!

***- Rza müəllim oxucularımıza özü haqqında başqa nələr söylərdi?!***

- 1956-cı il yanvarın 31-də Beyləqan rayonunun Aşıqlı kəndində anadan olmuşam. Kolxozçu ailəsində. Sonrakı həyatım Ağcabədi rayonu ilə bağlıdır. Hüsülü kəndinə köçmüşük. Orta məktəbi orada bitirmişəm. Ailədə 9 uşaq olmuşuq. Hamımız təhsilliyik. İşləyirik. Müəllim olanımız da var, mühəndis, mühasib, mədəniyyət işçisi olanlarımız da. Valideynlərimiz vaxtında bizim təhsil və tərbiyəmizlə ciddi məşqul olublar.

Mən Xankəndində Dövlət Pedaqoji İnstitutun tarix fakültəsini bitirmişəm. Pəncbərlər kənd orta məktəbində direktor müavini, partiya təşkilat katibi, Hüsülü kənd orta məktəbinin direktoru və rayon icra hakimiyyəti başçısının müavini vəzifələrində çalışmışam. 2001-ci ildən də şöbə müdiriyəm...

***- Son vaxtlar Ağcabədi çox gözəlləşib, onu tanımaq olmur...***

- Bilirsiniz, rəhbərdən çox şey asılıdır. Rəhbər yerində olanda, üzərinə düşən vəzifəni ləyaqətlə doğruldanda hər şey fərəh doğurur, könül oxşayır. İnsanların əhval-ruhiyyəsi də, şəhərin ab-havası da. Şahin müəllim (Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov) həyata bağlı insandır, işgüzar və tələbkardır, son dərəcə əxlaqlı və qayğıkeşdir. Təqdirəlayiq haldır ki, o, insanları dinləməyi bacarır. Fikir mübadiləsinə gedən adamdır. Qərar verməzdən əvvəl çox götür-qoy edir. Bu da özünü həyatda doğruldur. Mən və bütün rayon ziyalıları Şahin müəllimə minnətdarıq ki, Ağcabədinin bugünkü simaya düşməsində çox zəhmət çəkib. Ondan həm də ona görə razıyıq ki, bizim hər birimizi işləməyə ruhlandırır, çalışmağımız üçün imkan və şərait yaradır. Bu qayğı və diqqət mədəniyyətimizdən də yan ötmür. Təmir və tikinti ilə bağlı planlarımız çoxdur. Növbəti görüşümüzdə bunların bir daha şahidi olacaqsınız...

**Y.HİDAYƏTOĞLU**